QANUN № 06 (380), 2026, s. 185-192

Hüseynli Nigar Zahid qızı,
Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının magistrantı
E-mail: huseynlinigar434@gmail.com

UOT 340.12
DOI: https://doi.org/10.30546/2218-9130.060.2026.0178

HÜQUQİ TƏNZİMLƏMƏDƏ HÜQUQUN PRİNSİPLƏRİNİN ROLU

Açar sözlər: *hüququn prinsipləri, hüquqi tənzimləmə, hüquq normaları, hüquqi sistem, sosial münasibətlər, hüquqi təsir, hüququn funksiyaları, normativ tənzimləmə.*

Ключевые слова *принципы права, правовое регулирование, нормы права, правовая система, общественные отношения, правовое воздействие, функции права, нормативное регулирование.*

Keywords: *principles of law, legal regulation, legal norms, legal system, social relations, legal impact, functions of law, normative regulation.*

Hüquqi tənzimləmə ictimai münasibətlərin nizama salınması ilə əlaqədar məqsədyönlü şəkildə həyata keçirilən məqsədyönlü fəaliyyəti prosesidir. Göründüyü kimi, hüququn əsas funksiyasının yerinə yetirilməsi və cəmiyyətdə ictimai qaydanın formalaşdırılması məhz hüquqi tənzimləmənin hansı səviyyədə keçirilməsindən birbaşa asılıdır. Ona görə də hüquqi tənzimləmə və onun mexanizmləri təhlil edilərkən effektivlik əsas meyar kimi götürülməli, daha səmərəli mexanizmlərin tətbiqinə üstünlük verilməlidir. Bu yanaşma hüquqi müəyyənlik prinsipinin təmin olunmasına, cəmiyyətdə hüquq münasibətlərinin daha sürətli inkişafına və təkmilləşməsinə şərait yaradır. Hüquqi tənzimləmənin anlayışını və əhatə dairəsini müəyyən edərkən şahid oluruq ki, hüquqi tənzimləmə hüquq normalarından daha çox hüquqi kateqoriyaları vasitə kimi istifadə edir. Çünki heç də ictimai münasibətləri tam şəkildə tənzimləmək mümkün olmur. Bu onunla bağlıdır ki, ictimai münasibətlər hüquqi tənzimləmə mexanizmlərinə nisbətdə daha sürətlə inkişaf edir. Bir çox hallarda hüquqi tənzimləmə mexanizmləri dövlət tərəfindən formalaşdırılır. Ona görə də, hüquqi tənzimləmə mexanizminin formalaşmasınacan cəmiyyətin qarşısında meydana çıxmış bir çox hüquqi problemlə və məsələlər tənzimlənməmiş qalır. Bu isə sui-istifadə hallarının artması və cəmiyyətin haqlı narazılığı ilə nəticələnir. Bu şəraitdə hüquqi prinsiplər mahiyyətcə öz funksional xarakterindən irəli gələrək hüquqi tənzimləmə prosesində daha səmərəli nəticələr əldə etməyə imkan verir.

Ədəbiyyatda bununla əlaqədar qeyd olunur ki, hüquqi prinsiplər birbaşa tənzimləyici xarakterə malik olmamaqla ictimai münasibətləri dolayısı yolla tənzimləyirlər. Bu isə onunla əlaqələndirilir ki, hüququn prinsipləri ümumi xarakter daşıyır və konkret olaraq hansısa davranış qaydası və ya ictimai münasibəti tənzimləyən xüsusi xarakter daşımır. Buna baxmayaraq ümumi məzmun və mahiyyəti ilə seçilən hüququn prinsipləri hüquq normalarının təkmilləşməsi və formalaşması prosesində əsas kimi qəbul edilir. Ona görə də, normayaratma prosesi daima hüququn prinsiplərində öz təsbitini tapmış rəhbər müddəalar nəzərə alınmaqla həyata keçirilməlidir [15, s. 10]. Hüquqi prinsiplərin hüquqi tənzimləmədə rolu onların bilavasitə konkret

davranış qaydası müəyyən etməklə ictimai münasibətləri tənzimləməkdə deyil, hüquq sisteminin mahiyyəti və inkişaf istiqamətini müəyyən etməklə əlaqələndirilir. Hüquq prinsipləri öz məzmununa görə hüquq normalarına nisbətdə daha ümumi və abstrakt xarakter daşıyırlar. Buna görə də, hüquqi prinsiplər konkret ictimai münasibət və ya bu münasibətin iştirakçısı olan subyektin davranışını birbaşa tənzimləmir.

Belə deyə bilərik ki, hüququn prinsipləri sabitliyi ilə xarakterizə olunmaqla mövcud olan hüquq normalarının mahiyyətini müəyyən etməklə yanaşı gələcəkdə qəbul ediləcək hüquq normalarının formalaşdırılması üçün hüquqi baza rolunu oynayır.

Əsas funksiyaları kimi isə hüquqi tənzimlənmənin məzmununun müəyyənləşdirilməsi, hüquq subyektlərinin davranış qaydalarının və ya belə fəaliyyətlərinin hüquqauyğunluğu meyarının müəyyən edilməsi təsbit olunur. Qeyd olunan xüsusatlar nəzərə alınmaqla anlayış verilir [5, s. 126]. Qeyd olunan anlayış hüququn prinsiplərinin əsas hüquqi xarakteristikasını müəyyənləşdirməyə imkan verir. Belə ki, hüququn prinsiplərinin meydana çıxması ictimai münasibətlər əsasında olur və yalnız universallıq xüsusiyyəti əldə etdikdən sonra hüququn mənbəyi kimi çıxış edə bilir. Oxşar elmi mövqeyə başqa hüquq ədəbiyyatında da rast gəlinir və hüquqi prinsipin hüquqi tənzimləyici xarakteri açıqlanır [4].

Hüququn prinsipləri həm sosial gerçəkliyin hüquqi ifadəsi, həm hüquqi davranışın qiymətləndirilməsi meyarı, həm də hüquqi boşluqların aradan qaldırılmasında istifadə olunan mühüm tənzimləyici vasitədir. Azərbaycan Respublikasının Konstitusiyası [2] bu prinsiplərin normativ əsaslarını təsbit etməklə onların hüquq sistemində real əhəmiyyətini və mühüm rolunu təsdiqləyir.

Konstitusiyada qeyd olunanlar rəhbər tutulmaqla hüquq ədəbiyyatında qeyd olunduğu kimi hüquqi prinsiplərin imperativ normativ hüquqi aktların məzmununda təsbit olunması onun əsas xüsusiyyəti olması nəzərə alınaraq [1, s. 11] normativ hüquqi aktlar kontekstində hüquqi prinsiplərin təhlili məqəsədəmüvafiq olardı.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 1.0.11-ci və 13-cü maddələrinin müddəaları hüquqi prinsiplərin qanunvericilikdəki boşluqların aradan qaldırılmasında müstəqil normativ əsas kimi çıxış etdiyini təsbit edir. Qeyd olunan müddəaların təhlili göstərir ki, qanunverici konkret ictimai münasibəti tənzimləyən normanın mövcud olmadığı hallarda hüquqi tənzimləmənin tamamilə dayanmasına yol vermir və bunun üçün ardıcıl hüquqi mexanizm müəyyən edir. İlk növbədə qanunun analogiyası tətbiq olunmalı, yəni tənzimlənməyən münasibətə mahiyyətcə oxşar olan münasibətləri nizama salan hüquq normasından istifadə edilməlidir. Yalnız belə bir normanın da müəyyən edilməsi mümkün olmadıqda hüququn analogiyasına müraciət olunur. Bu ardıcıllıq hüququn analogiyasının adi deyil, subsidiar xarakter daşıdığını və yalnız digər normativ vasitələrin kifayət etmədiyi hallarda tətbiq oluna biləcəyini göstərir [7]. Həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6-cı maddəsi hüququn prinsiplərinin hüquqi tənzimləmədə real praktiki yerini göstərir [3]. Göründüyü kimi, hüququn prinsipləri müvafiq ictimai münasibətləri tənzimləyən normativ hüquqi akt olmadıqda tənzimləyici hüquq mənbəyi kimi nəzərə alınır.

Hüquq ədəbiyyatında hüquq qaydaları və hüquqi prinsiplər təhlil edilərək qeyd edilir ki, bu iki kateqoriya arasında kiçik fərqlərin mövcud olmasına baxmayaraq hər ikisi eyni funksiyanı, yəni hüquqi tənzimləməni həyata keçirir. Belə olan halda isə hüquq norması konkret ictimai münasibət və ya fərdin davranışını tənzimləməyə yönəldiyi halda, hüquqi prinsiplər daha ümumi xarakter daşıyır. Hüquqi prinsiplər hüquq norma-

larını əvəzləyən kateqoriya kimi deyil, hüquq normalarının dərk edilməsi və tətbiqinin əsaslarını müəyyən edici rola malikdir. Bu səbəbdən də qeyd edilməlidir ki, hüquqi prinsiplərin malik olduğu ümumi xarakter hüquqi tənzimləmədə onların əhəmiyyətini azaltmır, əksinə onların hüquq sistemində daha fundamental olduğunu deməyə imkan verir. Nə qədər ümumi xarakterə malik olduğu qeyd olunsa da, hüquqi prinsiplər subyektlərin davranış qaydalarını müəyyən edir və ictimai münasibətləri tənzimləyir. Hüquqi prinsiplər hüquqi tənzimləmədə ona görə xüsusi olaraq əhəmiyyətlidir ki, hələ yazılı hüquq normalarının formalaşmadığı dövrdən etibarən hüquqi prinsiplərin əsası qoyulmuşdur. Buna görə də hüququn prinsipləri cəmiyyətin kollektiv yaddaşı vasitəsilə dərk edilir və hüquqi tənzimləyici xarakterini formalaşdırır [9, s. 110-111]. Qeyd olunan fikirlə razılaşaraq qeyd edirik ki, hüquqi tənzimləmədə mühüm yer tutan hüquqi qaydalar və hüquqi prinsiplərin mahiyyət etibarilə arasında funksionallıq baxımından oxşarlıq mövcuddur. Hüquqi tənzimləmədə tətbiqi baxımdan isə onlar arasında olan bu oxşarlıq həddə fərqlilik də görünür. Hüquqi tənzimləmə mexanizmi kimi hüquqi davranış qaydaları və hüququn prinsipləri hüquqi sistemdə fərqli funksional mövqelərə malikdirlər. Hüquqi prinsip hüquq norması kimi çıxış etməklə daha çox ictimai münasibətlərin tənzimlənməsində ictimaiyyətin mövqeyini əks etdirir.

Bu baxımdan hüquqi prinsiplər hüququn mənbəyi kimi çıxış etməkdən hüquqi tənzimləməni həyata keçirməklə yanaşı, hüquq normalarının və hüquqi davranış qaydalarının formalaşdırılması, habelə təkmilləşdirilməsi üçün nəzəri və normativ baza funksiyasına malikdir. İctimai münasibətlərin inkişafı ilə həmin münasibətləri tənzimləyən hüquqi mexanizmlərin, xüsusilə hüquq normalarının dəyişməsi və cəmiyyətin inkişafına uyğunlaşması olduqca zəruridir. Lakin hüquq normalarının təkmilləşdirilməsi və ya dəyişdirilməsi, eyni zamanda yeni hüquq normalarının qəbulu ictimai tələb və ya siyasi iradə əsasında təsadüfi və ya mexaniki olaraq meydana çıxan nəticə kimi qəbul edilə bilməz. Belə dəyişikliklər hüququn daxili məntiqinə, onun əsas dəyərlərinə və ümumi başlanğıclarına uyğun həyata keçirilməlidir. Əks halda normativ yenilənmə hüquqi inkişaf deyil, hüquqi qeyri-müəyyənlik və normativ özbaşınalıq yarada bilər.

Məhz elə bu fikrin davamı kimi hüquq ədəbiyyatında yer alan bir yanaşmaya diqqət göstərilməsini məqsədəmüvafiq hesab edirik. Qeyd edilir ki, hüquqi tənzimləmədə mühüm yer tutan normayaratma və hüququn tətbiqi subyektiv mülahizələrə əsaslanmır. Qanunvericilik hakimiyyətini həyata keçirən orqan normayaratma prosesində onu müəyyən meyarlar üzrə yoxlayır. Burada meyar kimi isə hüququn prinsipləri əsas götürülür [11, s. 1]. Normayaratma və hüquqtətbiqetmə fəaliyyətinin legitimliyi yalnız normativ hüquqi akt qəbul edə bilən subyektin ifadə etdiyi iradə ilə deyil, həmin iradənin nəticəsində meydana çıxan hüquq normalarının hüququn obyektiv əsasları və müddəaları ilə nə dərəcədə uzlaşması ilə müəyyən oluna bilər. Bu baxımdan qanunvericinin və ya hüququn tətbiqi və mühafizəsinə məsul olan orqanların fəaliyyəti subyektiv yanaşma, siyasi iradə və ya fərdi xarakterli hüquqi əhəmiyyətə malik olmayan mülahizəyə əsaslandıqda hüquqi tənzimləmənin ictimai münasibətlərə nisbətdə gücü zəifləyir. Bununla da, əsas hüquqi tənzimləmə prosesi həyata keçirilməmiş qalır, hüquqi müəyyənlik və ədalətlilik prinsiplərinin təmin edilməsi təhlükə altına düşür. Hüquq prinsipləri isə normayaratma və hüquqtətbiqetmə prosesində məhz bu subyektivliyi məhdudlaşdıran, hüquqi prosesləri daha ardıcıl, əsaslandırılmış və ictimai ehtiyaclara uyğun edən meyarlar kimi çıxış edir.

Hüquq ədəbiyyatında qeyd olunur ki, hüquqi tənzimləmə, qanunvericilik və hüquqi nor-

maların tətbiqi də daxil olmaqla, hüquqi normaların köməyi ilə sosial münasibətlərin tənzimlənməsinə yönəlmiş xüsusi bir dövlət fəaliyyət növüdür ki, bunun da üsullarından biri hüquqi normaların tətbiqidir.

Hüquq ədəbiyyatında qeyd olunur ki, hüquqi tənzimləmə ictimai münasibətləri hüquqi təsir vasitəsilə həyata keçirir. Hüquqi təsir isə həm xüsusi hüquqi mexanizmlər olan hüquq normaları, davranış qaydaları və s. ilə yanaşı, hüquqi hadisələrdən irəli gələn mexanizmlərdən istifadə edilməsi ilə ictimai münasibətlərə təsir edilir [13, s. 280-286]. Qeyd olunandan da göründüyü kimi hüququn cəmiyyətə təsiri yalnız hüquq normaları ilə məhdudlaşmır. Bu baxımdan hüquqi prinsiplər hüquqi tənzimləmənin yalnız nəzəri əsasını deyil, həm də onun istiqamətverici və geniş məzmununu formalaşdırır. Hüquq norması konkret davranış qaydasını müəyyən etdiyi halda, hüquqi prinsip həmin qaydanın hüquqa uyğun olub olmamasını göstərir. Buna görə də hüquqi prinsiplər hüquqi tənzimləmənin daxili məntiqini təmin edən, hüquq normaları arasında əlaqə və bağlılıq yaradan əsas amillərdən biri kimi çıxış edir.

Hüquqi tənzimləmə prosesini yalnız formal normativ göstərişlərin tətbiqi kimi başa düşmək dar konseptual yanaşma olardı. Hüquq ictimai münasibətlərə təsir edərkən həm normativ vasitələrdən, həm də hüquqi düşüncə və hüquqi mədəniyyət kimi qeyri-formal hüquqi hadisələrdən istifadə edir. Hüququn prinsipləri bir tərəfdən hüquq normalarının məzmununa daxil olur və ya hüququn mənbəyi kimi qəbul edilərək tənzimləmə həyata keçirir, digər tərəfdən isə hüquqa və ictimai dəyərlərə uyğunluğun ölçülməsində meyar kimi çıxış edərək inkişaf meyillərini müəyyən edir.

Professor M. Məlikova ədalətlilik, humanizm, qanun qarşısında bərabərlik, demokratizm, hüquq və vəzifələrin vəhdəti, inandırma ilə məcburetmənin uzlaşdırılması və qanunçuluğu ümumhüquqi prinsiplər kimi göstərir. Bu prinsiplər hüququn bütün sahələrinə şamil olunur və əsasən konstitusiya normalarında təsbit edilir. Onların müxtəlif hüquq sahələrində rəhbər müddəa kimi çıxış etməsi ümumhüquqi xarakterini təsdiqləyir [6, 54-59].

Beləliklə, hüquqi prinsiplərin hüquqi tənzimləmədəki əhəmiyyəti yalnız hüququn mənbəyi kimi tənzimləyici funksiya yerinə yetirməsi, eləcə də hüquq normalarının yaradılması və tətbiqi zamanı rəhbər başlanğıc kimi çıxış etməsi ilə məhdudlaşmır. Hüquqi prinsiplər bütün tənzimləmə prosesinə məqsəd, məzmun və istiqamət verir. Məhz onların vasitəsilə hüquq bir-biri ilə əlaqəsi olmayan formal və mexaniki qaydalar toplusu deyil, ictimai münasibətləri ədalət, hüquqi müəyyənlik, bərabərlik və digər ümumqəbul edilmiş dəyərlər əsasında nizamlayan bütöv və məqsədyönlü sistem kimi fəaliyyət göstərir.

Bununla bağlı ədəbiyyatda qeyd olunur ki, hüquqi təsir və hüquqi tənzimləmə anlayışları bir-birinə bağlı şəkildə mövcuddurlar. Hüquqi tənzimləməni hüquqi təsirsiz düşünmək mümkün olmadığından daha geniş proses olan hüquqi tənzimləmə hüquqi təsiri özünə element kimi daxil edir. Hüquqi təsir vasitəsilə əsas funksiyasının yerinə yetirilməsinə nail olur [14, s. 22-26]. Beləliklə, hüquqi prinsiplərin hüquqi tənzimləmədəki rolu məhz bu geniş yanaşma daxilində daha aydın görünür. Əgər hüquqi tənzimləmə yalnız imperativ göstərişlər sistemi kimi başa düşülərsə, hüquqi tənzimləmənin və prinsiplərin funksiyası dar çərçivədə məhdudlaşır. Lakin hüquqi tənzimləmə ictimai münasibətlərə həm birbaşa, həm də dolayı hüquqi təsir mexanizmi kimi nəzərdən keçirildikdə, hüquqi prinsiplər onun ayrılmaz elementi kimi çıxış edir. Onlar hüququn normativ məzmunu ilə sosial təyinatı arasında əlaqə yaradır və hüquqi sistemin ardıcıllığını, legitimliyini və məqsədyönlülüyünü təmin edir.

Qanunvericilik prosesi sadəcə hüquq normasının texniki şəkildə yaradılması deyil, cəmiyyətin sosial münasibətlər sisteminin hüquqi forma vasitəsilə nizamlanmasıdır. Hər bir hüquqi akt konkret ictimai münasibətləri tənzimləsə də, onun keyfiyyəti həmin aktın daha ümumi hüquqi başlanğıclara – ədalət, hüquqi müəyyənlik, bərabərlik, qanunçuluq, mütənasiblik və insan hüquqlarına hörmət kimi prinsiplərə nə dərəcədə uyğun olması ilə ölçülür. Bu prinsiplər qanunvericinin fəaliyyətində istiqamətverici rol oynamaqla hüquqi tənzimləmənin təsadüfi və ziddiyyətli xarakter almasının qarşısını alır.

Bu mənada hüquq prinsipləri normayaratmanın yalnız nəzəri bazası deyil, həm də qanunvericilik fəaliyyətinin keyfiyyət meyarıdır. Vaxtında qəbul edilmiş, ictimai münasibətlərin real inkişaf səviyyəsinə uyğun və hüquqi baxımdan sistemli qanunlar yalnız o halda səmərəli ola bilər ki, onların məzmununda hüququn ümumi prinsipləri öz əksini tapsın. Əks halda, hüquqi akt formal baxımdan qüvvədə olsa da, sosial münasibətləri sabitləşdirmək, ictimai qaydanı təmin etmək və hüquqi etimadı möhkəmləndirmək imkanını itirə bilər. Buna görə də normayaratma və hüquqtətbiqetmə prosesində hüquqi prinsiplərə əsaslanma qanunvericiliyin obyektivliyini, ardıcıllığını və sosial faydalılığını təmin edən zəruri şərt kimi qiymətləndirilməlidir.

Belə deyə bilərik ki, hüququn prinsipləri sabitliyi ilə xarakterizə olunmaqla mövcud olan hüquq normalarının mahiyyətini müəyyən etməklə yanaşı gələcəkdə qəbul ediləcək hüquq normalarının formalaşdırılması üçün hüquqi baza rolunu oynayır. Hüquqi prinsiplərin sabitliyi də məhz bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Hüquq normaları zamanın tələblərinə uyğun olaraq dəyişə, yeni ictimai münasibətlərə uyğunlaşdırıla və ya hüquqi qüvvəsini itirə bilər. Prinsiplər isə daha dayanıqlı xarakter daşıyır və hüququn dəyişən normativ məzmunu ilə onun sabit mahiyyəti arasında əlaqələndirici vasitə kimi çıxış edir. Başqa sözlə, hüquqi prinsiplər hüquq sistemində davamlılığı təmin edir, normaların dəyişməsinə baxmayaraq hüququn əsas dəyər istiqamətlərinin qorunmasına imkan yaradır.

Belə qənaətə gəlmək olar ki, hüquqi prinsiplər hüquqi tənzimləmə sistemində ikinci dərəcəli vasitə deyil, həmin sistemin məzmununu və fəaliyyət istiqamətini müəyyən edən fundamental əsaslardır. Bu prinsiplər mövcud hüquq normalarının mahiyyətinin və məqsədinin düzgün müəyyənləşdirilməsinə, qanunvericilikdəki boşluqların aradan qaldırılmasına, normativ müddəaların vahid yanaşma əsasında şərh edilməsinə və yeni hüquq normalarının hazırlanmasına istiqamət verir. Deməli, hüquqi prinsiplərin əhəmiyyəti yalnız konkret ictimai münasibətlərə tətbiq olunması ilə məhdudlaşmır. Onların başlıca rolu hüquqi tənzimləmənin bütövlüyünü, daxili uyğunluğunu, sabitliyini və dəyişən ictimai münasibətlərə uyğun inkişafını təmin etməkdən ibarətdir.

Ədəbiyyatda o da qeyd edilir ki, cəmiyyətin təxəyyülü əsasında kortəbii formada meydana çıxmış bəzi müddəaların müəyyən tələblərə tabe normayaratma fəaliyyətinin nəticəsi olan hüquq normaları kimi qəbul edilərək hüquqi tənzimləmənin strukturunda eyni yerdə nəzərdən keçirilməsi doğru olmazdı. Cəmiyyət daxilində tədricən və təbii şəkildə formalaşan davranış modelləri sadəcə sosial adət və ya vərdiş kimi deyil, müəyyən hallarda hüquqi məzmun daşıyan normalar kimi çıxış edir. Bu normaların hüquqi xarakteri onların subyektlərin azadlıq həddini, hüquq və vəzifələrinin məzmununu müəyyən edən, ictimai baxımdan qəbul olunmuş davranış meyarı olmasında ifadə edilir. Belə qaydalar dövlət tərəfindən əvvəlcədən düşünülmüş şəkildə yaradılmasa da, sosial qrup, təşkilat və ya dövlət səviyyəsində müəyyən müdafiə mexanizmləri ilə təmin edildikdə hüquqi əhəmiyyət kəsb edir. Dövlət tərəfindən qəbul edilən hüquq normalarından fərqli olaraq, cəmiyyətin öz daxili inki-

şafı nəticəsində meydana çıxan belə müddəalar dövlət tərəfindən normativ hüquqi aktda təsbit edilib-edilməməsindən asılı olmayaraq ictimai münasibətlərə tənzimləyici təsir göstərir. Lakin bu qaydalar sosial həyat üçün xüsusi əhəmiyyət daşıdığından, dövlət çox vaxt onları normativ hüquqi aktlarda təsbit etməklə hüquqi mühafizə və təminat altına alır [12]. Bu yanaşma hüquqi tənzimləmənin yalnız dövlətin normayaratma fəaliyyəti ilə məhdudlaşmadığını göstərir. Əksinə, hüququn məzmunu bir çox hallarda cəmiyyətin özündə yaranan, praktik həyatın ehtiyaclarından doğan və sosial baxımdan qəbul edilən davranış standartları əsasında formalaşır. Ona görə də hüququn prinsipləri konkret davranış qaydasını hüquq norması kimi dəqiq müəyyən etməsə də, fəaliyyətin hüquqiliyini ölçməyə imkan verən ümumqəbul edilmiş meyar kimi çıxış edir. Hüquqi prinsiplərin hüquqi tənzimləmədə əhəmiyyəti də məhz burada üzə çıxır. Başqa sözlə, dövlət yeni norma yaratdığı zaman hüququn prinsiplərinə əsaslanmaqla effektiv hüquqi mexanizmlər formalaşdırır. Bu prosesdə hüquqi prinsiplər cəmiyyətin sosial təcrübəsi ilə dövlətin rəsmi hüquqyaratma fəaliyyəti arasında əlaqələndirici funksiya yerinə yetirir. Hüquqi prinsiplər sosial davranış qaydalarının hüquq sisteminə daxil olub-olmamasını qiymətləndirmək üçün də əsas hüquqi meyar kimi çıxış edir ki, bununla da ictimai münasibətlərin səmərəli şəkildə tənzimlənməsinə öz töhfəsini verir.

Odur ki, hüquqi tənzimləmənin əsas mexanizmlərdən biri hüquq normalarının tətbiqidir. Hüquq nəzəriyyəsində rast gəlinən yanaşmalardan birinə görə isə hüququn prinsipləri hüquq normalarının bir növü kimi qəbul edilir. Hüquq normalarının əsas kateqoriyası olan hüquqi qaydalardan fərqləndirən əsas xüsusiyyət kimi isə onun xüsusi və ya konkret ictimai münasibətlərə, hüquqi faktlara yönəlməyən ümumi xarakterli olması göstərilir [10, s. 270-273].

Məhz qeyd edildiyi kimi, hüquq normaları, xüsusilə hüquqi davranış qaydaları, bir qayda olaraq, nizamlayıcı funksiyaya malik olmaqla konkret hüquq münasibətlərində müəyyən hərəkətləri və subyektlərin davranış qaydalarını tənzimləməyə istiqamətlənir. Ona görə də, hüquqi davranış qaydası hüquqi mexanizm kimi daha dəqiq hüquqi çərçivələr müəyyən edir və konkret ictimai münasibəti tənzimləməyə xidmət edir. Hüquqi prinsip isə hüquqi davranış qaydalarından fərqli olaraq, daha geniş xarakterə malikdir və hüquq sistemində rəhbər başlanğıc olmaqla ümumi tətbiq edilə bilən ideya və inkişaf istiqamətini müəyyənləşdirən kateqoriya kimi özünü büruzə verir. Belə deyə bilərik ki, hüquqi davranış qaydaları subyektlərin fəaliyyətində meyarları müəyyən edərkən, hüquqi prinsiplər belə fəaliyyətin əsaslanmalı olduğu ümumqəbul edilmiş dəyər və ideyaları özündə ehtiva edir.

Təhlildən də göründüyü kimi hüquqi prinsiplər abstrakt xarakterə malik nəzəri müddəalar kimi qəbul edilməməlidir. Praktiki olaraq tənzimləyici və real normayaratma üzrə əsas meyilləri müəyyən edən hüquqi kateqoriya kimi qəbul edilməlidir. Hüquqi prinsiplər hüquqi davranış qaydaları ilə müqayisədə daha ümumi xarakter daşısalar da, bu, onların ictimai münasibətlərə tətbiqi zamanı hüquqi təsir gücünün zəif olması demək deyildir. Bunun əksi olaraq qeyd edilən hal hüquqi prinsipləri hüquqi tənzimləmədə xüsusi əhəmiyyətli bir yerə gətirməklə daha geniş dairədə tətbiq edilmə imkanı yaratmaqla, hüququn müxtəlif sferaları arasında əlaqələndirici funksiyanın həyata keçirilməsinə də imkan yaradır.

Onu da qeyd etməliyik ki, birbaşa hüquqi tənzimləyici xarakterindən əlavə olaraq hüquqi prinsiplər hüquqi boşluqların mövcud olduğu halda hüquqi tənzimləmənin həyata keçirilməsində əsas hüquqi mexanizm kimi çıxış edir. Bir çox hallarda hüquq normalarının qəbul edilməsi məqsədinin formalaşdırılmasında vacib rol oy-

namaqla onun məzmununun müəyyən edilməsini təmin edir. Bununla da hüquqi tənzimləmədə öz mövqeyini daha da gücləndirir. Bu səbəbdəndir ki, hüququn prinsipləri təkcə nəzəri əsasları özündə ehtiva etmir, həm də hüququn praktiki tətbiqində istiqamətverici mühüm meyar və mexanizm kimi çıxış edir. Hüquqi tənzimləmədə hüquqi davranış qaydaları və hüququn prinsipləri arasındakı fərqi prinsiplərin və qaydaların toqquşması halının təhlil edilməsi müəyyən edə bilərik. Prinsip və qaydaların ziddiyyəti iki fərqli normanın tətbiqi və hüquqi tənzimləmənin məqsədinə uyğun gəlməyən nəticənin meydana çıxması ilə nəticələnə bilər. Bu zaman onların mahiyyəti və əsas xarakterik xüsusiyyəti hüquqi tənzimləmənin həyata keçirilməsi üçün əsas kimi çıxış edir [8, s. 295].

Hüquqi prinsiplərin hüquqi tənzimləmədə xüsusi əhəmiyyəti həm də onların tarixi və sosial mənşəyi ilə əlaqələndirilir. Elə bu səbəbdən də hüququn prinsiplərinin tətbiq edilməsi üçün normativ hüquqi aktda təsbit edilməsi kimi şərt mövcud deyil. Belə rəhbər ideyalar cəmiyyətin hüquq düşüncəsində, tarixində, təcrübəsində formalaşmış əsas dəyərlərin ifadə edilməsi kimi başa düşülməlidir.

Nəticə etibarilə, hüquqi davranış qaydaları ilə hüquqi prinsiplər hüquq norması kimi qəbul edilməklə hüquqi tənzimləyici funksiyanı həyata keçirməsinə baxmayaraq, onlar arasında fərq hüquqi tənzimləmədə tətbiq edilib-edilməməkdə deyil, bu tənzimləməni hansı səviyyədə və hansı vasitələrlə həyata keçirməsindədir. Norma konkret münasibəti bilavasitə nizama salırsa, prinsip hüquqi tənzimləmənin ümumi istiqamətini və inkişaf meyillərini müəyyən etməklə normayaratma prosesində əsas götürülən ideya kimi qəbul edilir. Bununla da, həm hüququn mənbəyi kimi birbaşa hüquqi tənzimləyici funksiyanı yerinə yetirir, həm də rəhbər müddəa kimi bir çox istiqamətlərdən ictimai münasibətlərin nizamlanmasına dolayı təsir göstərir, hüquq normalarının formalaşdırılmasında və təkmilləşdirilməsində əsas tutularaq effektiv hüquqi tənzimləmə mexanizminin fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Məhz bu xüsusiyyətlərinə görə hüquqi prinsiplər hüquqi tənzimləmədə xüsusi əhəmiyyətə malikdir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Dövlət və hüquq nəzəriyyəsi kafedrasının Hüquq nəzəriyyəsi - 1 fənni üzrə Hüququn Anlayışı və Mahiyyəti mövzusunda mühazirə materialı, Bakı, 2015, 27 s.

2. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (26 sentyabr 2016-cı il tarixdə olan əlavə və dəyişikliklər). [Elektron resurs]/URL: http://www.e-qanun.az/framework/897, 29.01.2026

3. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/46944, 29.01.2026

4. Quliyev A. Hüquqi tənzimetmə və onun mexanizmi. – Bakı: Qanun, – 2011. №8(208). – s. 3-11

5. Lazarev V.V, Afanasyev V. S. və b. Ümumi hüquq və dövlət nəzəriyyəsi: ali məktəblərin hüquq fakültələri üçün dərslik; red. V. V. Lazarev; tərc. Ə. Rzabəyli; tərc. red. A. Əbilov. – Bakı: Qanun, – 2014. – 491 s.

6. Məlikova M. Hüquq nəzəriyyəsi. Dərslik. – Bakı: Elm və təhsil nəşriyyatı, – 2025. – 451 s.

7. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu. [Elektron resurs]/URL: https://e-qanun.az/framework/21300 29.01.2026

8. Alexy R. On the Structure of Legal Principles Ratio Juris. Vol. 13 No. 3 September 200, – p. 294-304,

9. Daci J.Legal Principles, Legal Values and Legal Norms: are they the same or different?, Academicus International Scientific Journal, – № 2, 2010, – 109-115 p.

10. GuÈnther, Klaus. 1988. Der Sinn fuÈr Angemessenheit. Frankfurt: Suhrkamp, – 1988. – 410 p.

11. Василевич С. Г. Правовые принципы как основа нормотворчества и правоприменения https://elib.bsu.by/bitstream/123456789/29377/1/30_Василевич.pdf 15.03.2026

12. Долгополова М. Актуальные проблемы предмета и метода правового регулирования, диссертации и автореферата? 2009? 174 с.

13. Комаров, С. А. Общая теория государства и права : учебник для вузов / С. А. Комаров. — 10-е изд., испр. и доп. – Москва : Издательство Юрайт, – 2026. – 528 с.

14. Попов В. В. Соотношение правового регулирования и правового воздействия: методологические ошибки теории // Труды Академии управления МВД России. – 2019. № 2 (50). – с. 22–31.

15. Сидоркин А.С. Принципы права: понятие и роль в правовом регулировании, государство и право россии: история и современность, Вестник РУДН, серия Юридические науки, – 2009, № 4. – с.5-12

Хусейнли Нигар Захид гызы,
магистрант кафедры теории и истории государства и права
Бакинского государственного университета

РОЛЬ ПРИНЦИПОВ ПРАВА В ПРАВОВОМ РЕГУЛИРОВАНИИ

РЕЗЮМЕ

В статье исследуется роль принципов права в механизме правового регулирования общественных отношений. Отмечается, что правовое регулирование не может рассматриваться исключительно как система формальных правовых норм, поскольку развитие общественных отношений во многих случаях опережает процесс нормотворчества. В таких условиях принципы права приобретают особое значение, выступая в качестве фундаментальных ориентиров для формирования, толкования и применения правовых норм.

В работе обосновывается, что принципы права обеспечивают внутреннюю согласованность правовой системы, стабильность правового регулирования и соответствие законодательства таким базовым ценностям, как справедливость, законность, правовая определенность, равенство и соразмерность. Особое внимание уделяется значению правовых принципов в нормотворческой и правоприменительной деятельности, а также их роли при устранении пробелов в законодательстве. Делается вывод о том, что принципы права являются не вспомогательным, а системообразующим элементом правового регулирования, определяющим его содержание, направленность и эффективность.

Huseynli Nigar Zahid,
Master's student, Department of Theory and History
of State and Law, Baku State University

UNDERSTANDING OF LEGAL PRINCIPLES AND THEIR IMPORTANCE IN LEGAL REGULATION

SUMMARY

The article examines the role of principles of law in the mechanism of legal regulation of social relations. It emphasizes that legal regulation should not be understood merely as a system of formal legal norms, since the development of social relations often proceeds faster than the process of law-making. In this context, principles of law acquire particular importance as fundamental guidelines for the formation, interpretation, and application of legal norms.

The article argues that principles of law ensure the internal coherence of the legal system, the stability of legal regulation, and the conformity of legislation with such basic values as justice, legality, legal certainty, equality, and proportionality. Special attention is given to the role of legal principles in law-making and law enforcement, as well as in filling legislative gaps. The article concludes that principles of law are not merely auxiliary elements of legal regulation, but system-forming legal categories that determine its content, direction, and effectiveness.

Redaksiyaya daxilolma tarixi: 07.06.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 25.06.2026
Çapa qəbul olunma tarixi: 29.06.2026